# Multikulturalizmi ehtiva edən uğurlu dövlət siyasəti

**Bu gün müasir Azərbaycan dünyada baş verən milli-dini toqquşmalar, müharibələr, etnik təmizləmə, irqi ayrı-seçkilik fonunda həm daim genişlənən əməkdaşlıq, həm də sivilizasiyalararası dialoqun ən səmərəli nümunəsi və tolerant ölkədir. Xalqımızın başqa etnosları özündən ayırmaması, tolerantlığı, dözümlülüyü, artıq dünyada təsdiq olunan faktdır, bu sosial-humanitar reallıq hazırkı gərgin beynəlxalq şəraitdə sivilizasiyalararası dialoq sahəsində tarixi və müasir təcrübənin nadir nümunəsidir.**

Müasir şəraitdə dünya xalqları ilə sıx təmasda mədəniyyətimizin qorunması, qarşılıqlı zənginləşməsi və inkişafı dövlət siyasətinin mühüm tərkib hissəsidir. Əsas və strateji məqsəd xalqın mədəni potensialının yüksəlməsi, irsinin nəsildən-nəslə ötürülməsi, inkişafının davam etdirilməsidir. Bu siyasət Azərbaycan mədəniyyətinin bütün sahələrdə yeni inkişaf mərhələsinə çıxmasına, ölkədə vahid mədəniyyət mühitinin yaradılmasına, tolerantlığa malik çoxmillətli respublikamızın insanlarının bərabər imkanlarının təmin edilməsinə, mədəniyyətlərarası dialoqun davamlılığına geniş imkanlar açmaqla bərabər, multikulturalizmin alternativinin olmamasını təsdiq edir. Son illər humanitar və mədəniyyət sahəsində Azərbaycanın qazandığı uğurlar təsadüfi deyil, bu sahəyə dövlətin xüsusi diqqətinin, düşünülmüş strategiyasının, ölkə Prezidenti cənab İlham Əliyevin bu istiqamətdəki siyasətinin müvəffəqiyyətlə davamının nəticəsidir. Əsrimizdə qloballaşma prosesi gedir. Fövqəl və güclü dövlətlər, siyasi qüvvələr bu prosesi istədikləri səmtə yönəltməyə, zəif çıxanları öz təsirləri altına almağa, nüfuz dairələrinə daxil etməyə çalışırlar. Bu mübarizədə öz milli mənliyini qoruyan, inkişaf etdirən yaşamaq hüququ qazanır. Hazırkı beynəlxalq münasibətlərdə çox aydın olan vəziyyətdir ki, xalqların tarixi, mənşəyi və mənəvi dəyərlərinin mənsubluğu, təkamülü uğrunda çox gərgin, bəlkə amansız mübarizə gedir. Bu gün dünyaya aydındır və faktdır ki, dövlətimizin ən əsas, ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətində ermənilərin qondarma tarixləri də var, ərazilərimizə, milli-mənəvi dəyərlərimizə, hətta mətbəximizə qədər iddiaları səngimir və heç bir sübutu olmayan həmin iddiaların arxasında böyük siyasi qüvvələrin öz siyasi məqsədləri üçün dəstəkləmələri dayanır. Təsadüfi deyil ki, etnik təmizləmə həyata keçirmələrin nəticəsində Ermənistan monoetnik dövlət olduğu halda az qala bizim bütün mədəni sərvətlərimizi "özününküləşdirir", azərbaycanlıları kökü olmayan bir eqoist xalq kimi dünyaya təqdim etməyə çalışırlar. Musiqi nümunələrini, xalçalarımızı, alban kilsələrimizi və s. mənimsəmələrini yada salsaq, kifayətdir. Milli dəyər və mədəniyyət hər bir millətin mövcudluğu, varlığı, pasportu, yaşamaq haqqı və bəşəri dəyərlər toplusuna töhfə verməsi deməkdir.

Azərbaycan Prezidenti İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqində öz soy-kökümüzə sahib çıxmaq və milli dəyərlərimizi inkişaf etdirməyin əhəmiyyəti barədə demişdir: "Biz bu illər ərzində bütün əsas tarixi, mədəni, dini abidələrimizi əsaslı şəkildə bərpa etmişik və yenilərini tikmişik. Teatrlar, muzeylər - bu sahəyə də nəinki Bakıda, hər bir yerdə, bütün bölgələrdə böyük diqqət göstərilir. Çünki bu, bizim tariximizdir, mədəniyyətimizdir.

Biz bunu gələcək nəsillər üçün qorumalıyıq ki, Azərbaycanın davamlı, uzunmüddətli inkişafı təmin edilsin". Müdrik dövlət başçısı xalqımızın əbədiyyən yaşaması üçün qədimdən qədim milli-mənəvi dəyərlərimizi bu günədək yaşayan mədəniyyətimizi, onun tərkib hissəsi olan hazırda multikulturalizm deyilən dözümlülüyü, birgəyaşayışı, tolerantlığı da əbədiyyən var etmək üçün öz kökümüzə bağlı olmağımızı vurğulayır: "Biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır. Çünki bu gün qloballaşma prosesi gedir. Düzdür, son vaxtlar bu "qloballaşma" sözü daha az çəkilir. Ancaq proses gedir. Sadəcə olaraq bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər".

XX əsrin sonu və XXI əsrin əvvəllərində baş verən qloballaşma prosesinin mahiyyətində assimilyasiya mənimsəmə və özününküləşdirmə məqsədi dayanır. Biz beynəlxalq prosesləri təhlil edərkən əməkdaşlığın genişlənməsini, sivilizasiyaların dialoqunu, humanitar dəstəkləri, birgəyaşayış nümunələrini və cəhdlərini görürük, lakin milli-dini zəmində toqquşmaları, etnik təmizləmələri, soyqırımları, milyonlarla qaçqınların faciəsini, günahsız cavanların, yaşlıların, körpələrin, bir sözlə, insanların həlak olduqlarının, xoşbəxt, sakit həyat ardınca Avropaya gedənlərə qeyri-insani yanaşmaların da kütləvi informasiya vasitələrində şahidi oluruq. Azərbaycan Prezidenti qloballaşma adlı inteqrasiya modelinin arxasında duran məqsədi və mühüm hədəf dayandığını, aydın, çox sadə dillə ifadə edib: "Əlbəttə ki, indi qloballaşma deyəndə bəziləri bunu inteqrasiya, dünyanın yeni inkişaf modeli kimi qələmə verirlər. Ola bilər, müsbət məqamlar da var, onları mən inkar etmək istəmirəm. Ancaq, eyni zamanda, açıq-aydın görünür, bu siyasətlə böyük dairəyə hakim olmaq, öz təsir imkanlarını genişləndirmək istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz ecdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə göndərmək mümkün olsun. Ona görə milli ruhda tərbiyə almaq hər bir gəncin borcudur".

Diqqətə çatdırmaq vacibdir ki, müstəqillik siyasətində multikulturalizm hər zaman Azərbaycan dövlətində mühüm istiqamət olub, bu gün də bu belədir. Ölkəmizdə hər bir etnik qrup öz mədəniyyətini yaşatmaqda müvafiq qanunlara əsasən azaddır və bu toplumlar həm də ümumən Azərbaycan mədəniyyətinin bir hissəsidirlər. Ən mühümü odur ki, xalq da bu reallığı tarixən qəbul etmiş, bu günədək yaşatmışdır. Buna görə də multikulturalizmi qan yaddaşında yaşadan nəslin üzərinə böyük vəzifə düşür. Dövlət başçısı milli-mənəvi dəyərlərin əbədiliyi üçün yaşlı nəslin üzərinə çox mühüm, həyati vəzifə düşdüyü barədə deyib: "Yaşlı nəsil borcludur ki, bax, bu ənənələri yaşatsınlar və gəncləri milli ruhda böyütsünlər. Ona görə bizim tarixi, dini abidələrimiz, sadəcə memarlıq abidələri deyil. Bu, eyni zamanda, tərbiyə vasitəsidir. Bu gün Azərbaycan müasir, inkişaf edən, ancaq öz köklərinə sıx bağlı olan dövlət və cəmiyyətdir. Həmişə də belə olmalıdır".

Dövlət başçısının Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Fərmanda bu qurumun təsisinin səbəbləri və fəaliyyətinin mahiyyəti barədə deyilir ki, sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Təsadüfi deyil ki, Azərbaycan multikulturalizmi təcrübəsi beynəlxalq miqyasda öyrənilir, təqdir edilir və bir çox ölkədə tədris edilir.

Hazırda paytaxt Bakının müxtəlif sahələrə dair beynəlxalq əməkdaşlıq mərkəzinə çevrildiyi bir reallıqdır. Davos Ümumdünya İqtisadi Forumu, Madrid Klubunun toplantısı Cənubi Qafqazda və Mərkəzi Asiyada ilk dəfə olaraq Azərbaycanın paytaxtı Bakıda keçirilmişdir. Artıq Mədəniyyətlərarası Dialoq və Bakı Humanitar forumlarının Dünya dini liderlərinin sammitinin də ölkəmizdə keçirilməsi ənənə halını almışdır. Belə tədbirlərin Azərbaycanda keçirilməsi təbiidir, çünki hər bir dövrdə ölkəmizdə bütün millətlərin, dinlərin nümayəndələri sülh, əmin-amanlıq, qardaşlıq şəraitində yaşamış, çiyin-çiyinə çalışmışlar.

**Tahir İSMAYILOV,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi.**

Respublika.- 2019.- 28 noyabr.- S.2.